**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

**ƏMR № 59**

**Bakı şəhəri** **01.07.2021-ci il**

“Bakı Fond Birjası” QSC-də ticarət tariflərinə dair

**Əmr edirəm**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabinetinin “Tədbirlər Planı”nın icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankının təklif etdiyi əlavə dəstəkləyici tədbirləri nəzərə alaraq, “Bakı Fond Birjası” QSC-də:

- qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı tələb olunan sənədlərin dairəsi 31 dekabr 2021-ci il tarixinədək minimallaşdırılaraq, emitentlərdən yalnız ərizə-anket (Forma №1), qiymətli kağızların dövlət qeydiyyatı haqqında sənədin surəti və emissiya prospekti tələb edilsin.
- qiymətli kağızların qapalı yerləşdirməsi zamanı tələb olunan sənədlərin dairəsi 31 dekabr 2021-ci tarixinədək minimallaşdırılaraq, emitentlərdən yalnız qiymətli kağızların qapalı yerləşdirilməsi üzrə ərizə və qiymətli kağızların dövlət qeydiyyatı haqqında sənədin surəti tələb edilsin.

2. Bu əmrin 1-ci bəndindən irəli gələn məsələlərə dair “Bakı Fond Birjası” QSC-nin internet səhifəsindəki müvafiq məlumatlar yenilənsin.

3. Bu Əmrin 1-ci bəndindən irəli gələn məsələyə dair tələb olunan tədbirlərin həyata keçirilməsi “Ticarət və üzvlük qrupu”nun rəhbəri İ.Mustafayevə və “Biznes inkişafı qrupu”nun rəhbəri E.Babayevə həvalə edilsin.

4. Ümumi işlər qrupunun rəhbəri L.Qurbanova müvafiq struktur-bölmələrin bu əmrlə tanış olmasını təmin etsin.

**İdarə Heyətinin sədri v.m.i.e.**

**Eldar Abdullayev**